Azerbaijanian Journal of Economics and Social Studies

*Azərbaycanın İqtisadi və Sosial Araşdırmalar Jurnalı*
www.azjess.com
Volume 3, Number 2/İl 3, Say 2, 2016

# İQTİSADİ MEXANİZM: MAHİYYƏTİ, FORMALAŞDIRILMA PRİNSİPLƏRİ VƏ FUNKSİYALARI

**Əlisa Təvəkkül oğlu ZEYNALLI[1], i.f.d.,**
*KTİETİ-nin Aqrar sahədə inteqrasiya və kooperasiyanın inkişafı şöbəsinin müdiri*

**Xülasə.** İnsanların məqsədyönlü fəaliyyətini səciyyələndrən iqtisadi mexanizm çox mürəkkəb bir mexanizmlər sistemini özündə birləşdirir. Onun mərkəzi elementləri: istehsal, mübadilə (ticarət) və istehlak münasibətləri sistemindən ibarətdir. Hüquqi, təşkilati və idarəetmə, uçot və hesabat mexanizmlərinin səmərəli fəaliyyəti çox mühüm əhəmiyyət kəsb edir. İqtisadi mexanizmin səmərəli fəaliyyətinə xidmət göstərən mexanizmlər: qiymət, xərclər, vergi, investisiya, sığorta, kredit, dövlət tənzimləməsi, maliyyə, dəyərin bölgüsü, yeni yaradılmış (əlavə) dəyərin bölgüsü və regional (coğrafi) fəaliyyət mexanizmlərindən ibarətdir. İqtisadi mexanizm mexanizmlər mexanizmidir və onun istənilən birinin fəaliyyətindəki nasazlıq və çatışmazlıq bütövlükdə iqtisadi mexanizmin normal fəaliyyətinə mənfi təsir göstərir.

**Açar sözlər:** iqtisadi mexanizm, istehsal münasibətləri mexanizmi, mübadilə (ticarət) mexanizmi, istehlak münasibətləri mexanizmi, xidmət mexanizmləri.

**Problemin qoyuluşu.** Bəşəriyyət, özünün təkamül prosesində harmonik inkişaf mərhələlərini keçərək, müasir dövrdə çox mürəkkəb bir ictimai sistemə çevrilmişdir. Onun sosial, mədəni, intellektual və iqtisadi inkişaf meylləri ahəngdarlıq qanununun təsiri altında qloballaşmaq xarakteri qazanmış, tədricən möhkəmlənir və genişlənmə xüsusiyyətlərini özündə əks etdirir. Bu inkişaf meyllərinin hər birinin ətraflı təhlili, tərkib xüsusiyyətlərini bilmək, məqsədyönlü inkişaf yoluna istiqamətləndirmək getdikcə daha çox əhəmiyyət kəsb edir. Nəzəri və təcrübi fəaliyyətin səmərəli təşkili, qarşılıqlı vəhdətdə intellektual inkişafı təmin etmək zərurətə çevrilir. Burada iqtisadi münasibətlərin ətraflı, hərtərəfli və kompleks inkişafının təmin olunması məqsədilə, vahid bir orqanizm – iqtisadi mexanizm halında nəzərdən keçirilməsi, nəzəri və təcrübi aspektlərdən yanaşmaq məqsədəuyğun sayılır.

**Problemin öyrənilmə səviyyəsi.** Problemin ayrı-ayrı məsələləri müxtəlif vaxtlarda həm beynəlxalq aləmdə və ölkəmizin iqtisadçı alimləri tərəfindən pərakəndə

[1] Əlaqə vasitələri: zeynal1950@mail.ru; mobil tel. 051 593 30 25

halda öyrənilmişdir. Son illərdə avropa ölkələri və rusiyalı iqtisadçı alimlər arasında iqtisadi mexanizm məsələləri, iqtisadi mexanizm nəzəriyyəsi və s. aspektlərdə tədqiqatlara diqqət yönəldilmiş, müxtəlif yanaşmalar müşahidə edilmiş və nəzəriyyələr meydana gəlmişdir. 2007-ci ildə iqtisadiyyat üzrə Nobel mükafatı məhz iqtisadi mexanizm nəzəriyyəsindəki nailiyyətlərə görə verilmişdir.

**Məqalənin yeniliyi.** Ölkəmizdə iqtisadi mexanizmin ayrı-ayrı elementlərinin (məsələlərinin) nəzəri və praktiki həllinə diqqət yönəldilsə də, problemin vahid bir kompleks halında və elementlərinin qarşılıqlı əlaqədə öyrənilməsinə kifayət qədər əhəmiyyət verilməmişdir. Məqalədə bu çatışmazlığı aradan qaldırmağa, iqtisadi mexanizmə beynəlxalq təşkilatlar tərəfindən irəli sürülən prinsiplərdən yanaşmağa, iqtisadi subyektlərin fəaliyyətinin tərkib əlamətlərini, fərdi, qrup, sahəvi, regional (coğrafi) və s. aspektlərdən yanaşaraq, ətraflı öyrənmək, təhlil etmək, inkişaf qanunauyğunluqlarını müəyyən etmək və məqsədyönlü istiqamətlərə yönəltmək üçün əlverişli şərait yaratmaq yolları müəyyənləşdirilir və tövsiyələr irəli sürülür.

## 1. İqtisadi mexanizmin mahiyyətinin müəyyən edilməsi

Bəşəriyyət özünün çox rəngarəng, mürəkkəb, təlatümlü və keşməkeşli inkişaf mərhələsinə daxil olmuşdur. Elmi-texniki inqilablar, o cümlədən, informasiya inqilabı cəmiyyətin bütün inkişaf istiqamətlərində: ictimai, iqtisadi və sosial sahələrin-də insanların həyat tərzində, kəmiyyət və keyfiyyət baxımından, yeni vəzifələr müəyyənləşdirmiş, onların həlli yollarını axtarıb tapmaq zərurətini doğurmuşdur.

Filosofların təbirincə desək, XXI əsr tarixin elə bir mərhələsinə çevrilmişdir ki, bu zaman bütün gerçəkliklər - hər şey dəyişir, şüurda, məişətdə və həyatda əsaslı islahatlar baş verir, ağlasığmaz ağlasığana çevrilir, insan və cəmiyyətin fəaliyyətində, intellektual və ekzistensional (*ekzistensializm - həyatın mənasızlığını, ictimai fəaliyyətin faydasızlığını, əxlaqın əsassızlığını sübut etməyə çalışan imperializm dövrü fəlsəfi cərəyanı, qərb məkanı insanların düşüncə tərzi - Ə.Z.*) varlığında, dünyaya və özünə münasibətdə, istehsal, mübadilə, əlaqə və münasibətlərdə, bir sözlə, bəşəri mövcudluğun bütün sferalarında - maddi və sosial varlıqlarda, siyasətdə, dünyagörüşündə keyfiyyət dəyişikliyi baş verir [1, 5].

İqtisadçı alimlərin qənaətinə görə, bəşəriyyətin təkamül prosesində əmək vasitələri təkmilləşmiş, ağac, daş, gil, tunc və dəmir alətlərdən istifadə etmək mərhələlərini keçərək, müasir istehsal vasitələrinə sahib olunmuşdur. Müxtəlif dinlərin yaranması bəşəriyyətdə baş verən ən qlobal islahat mərhələləri hesab edilir. İctimai əmək bölgüsü mədəni əkinçilik və heyvandarlığın yaranması, sənətkarlığın meyda-na gəlməsi, kapital yığımı və ticarətin formalaşması kimi inkişaf mərhələlərini keçmişdir. Dərin ixtisaslaşma baş vermişdir. Göstərilən dəyişikliklər nəticəsində müasir mürəkkəb iqtisadi münasibətlər sisteminin formalaşmasına nail olunmuş, vahid dünya təsərrüfatı sistemi yaranmış, onun müxtəlif fəaliyyət sahələri üzrə iki növ funksiyaların yerinə yetirilməsi: məhsul istehsalı və xidmətlər göstərilməsi mədəniyyəti mənimsənilmişdir [2, 19].

Nəzəriyyəçilərin yazdığına görə, iqtisadi sistemin tarixi təsnifləşdirilməsi, müasirlərlə yanaşı, keçmiş və gələcək sistemləri özündə birləşdirir. Buna uyğun olaraq, postindustrial (sənayedən sonrakı) cəmiyyət nəzəriyyəsi tərəfindən iqtisadi münasibətlər tarixi üç mərhələyə bölünmüşdur: sənayeləşdirməyəqədərki mərhələ, sənayeləşdirmə mərhələsi və sənayeləşdirmədən sonrakı inkişaf mərhələlərinə diqqət yönəldilmişdir. İqtisadi münasibətlər sisteminin inkişaf xüsusiyyətləri, mərhələləri, onların hər birinin

daşıdığı mahiyyət və rolun yerdəyişmələri insan övladının əzəli iqtisadi fəaliyyətinin - kənd təsərrüfatının əhəmiyyətini azaltmamışdır. Əksinə, onun tərkibi genişləndirilmiş, dərinləşdirilmiş, dar ixtisaslaşma aparılmış, vaxtaşırı islahatlara məruz qalmış və s. rəngarəngliklər yaranmışdır. Nəzəriyyələr yaradılmış və zamanın tələblərinə uyğun təkmilləşdirlmişdir. Müxtəlif təsnifatlardan istifadə edilmişdir.

Beləliklə, müasir dövrün tədqiqatçı və mütəxəssislərinin hazırladığı nəzəriyyələrdə, iqtisadi münasibətlər sisteminin inkişaf mərhələləri barədə təkliflərində kənd təssərrüfatı arxa plana keçirilsə də, sənayeləşdirmə və sənayedən sonrakı mərhələlərinin təşkili, idarə edilməsi və inkişaında baza rolunu yenə kənd təsərrüfatı ilə məşğulluq təşkil edir və əsas şərt sayılır. Məlumdur ki, bir çox emal sahələri kənd təsərrüfatı xammalından istifadə edir. İlkin və təkrar emal sahələrinin səmərəli fəaliyyəti məhz kənd təsərrüfatı məhsullarının istehsalının inkişaf səviyyəsindən asılı olur. Kənd təsərrüfatı sənayedən sonrakı iqtisadi inkişaf mərhələsinin əsasını təşkil edən informasiya xidmətlərinin obyektinə çevrilir. Onun istehlak bazarını formalaşdırır və genişləndirir.

İqtisadi münasibətlər sistemində nəzəri-metodoloji həllini tələb edən yeni məsələlər sırasında "iqtisadi mexanizm" anlayışı müşahidə edilir və özünün həllini gözləyir. Adından göründüyü kimi, bu anlayış müxtəlif mahiyyətli iki sözün birləşməsindən əmələ gəlmişdir: "iqtisadiyyat" və "mexanizm" sözlərinin kombinasiyası sayılır.

"İqtisadiyyat" anlayışı insanların iqtisadi fəaliyyətinin, iqtisadi münasibət-lərinin, istehsal mədəniyyətinin müxtəlif aspektlər üzrə təsviri məqsədilə istifadə edilir, şifahi nitqində və yazılı ünsiyyətində mühüm əhəmiyyət kəsb edir. Onların məqsədyönlü fəaliyyətinin təmin olunmasına xidmət göstərir. "Mexanizm" anlayışı çoxmənalı mahiyyətə malik olsa da, ilk növbədə, maşın, mühərrik, aparat və proseslərin daxili quruluşunu səciyyələndirir. Məcazi mənada nəyinsə, hansısa bir var-lığın quruluşu, sistemi barədə tam və dolğun təsəvvür yaratmağa xidmət göstərir. Buradan da demək olur ki, "iqtisadi mexanizm" insanların iqtisadi fəaliyyətinin, yəni istehsal, mübadilə (ticarət), istehlak münasibətlərinin xüsusiyyətlərini üzə çıxarmaq, inkişaf meyllərini müəyyən etmək, qanunauyğunluqları öyrənmək, nəticələrini iqtisadi-statistik qiymətləndirmək, əldə edilən səmərəliliyi və yol verilən nöqsanları müəyyənləşdirərək, sonuncuların aradan qaldırılması üçün məqsədyönlü tədbirlərin yerinə yetirilməsinə xidmət göstərir. Başqa sözlə ifadə etsək, "iqtisadi mexanizm" çox mürəkkəb bir sistemi özündə səciyyələndirir.

Hələ qədim dövrün insanları özlərinin iqtisadi münasibətlərinin sistemləşdirilməsi və təsnifləşdirilməsinə diqqət yönəltmişlər. Nəzəriyyəçilər onu, bir qayda olaraq, ictimai əmək bölgüsü adlandırmışlar. İlk vaxtlar ovçuluq və yığıçılıqdan mədəni əkinçiliyə keçidin baş verdiyi bildirilir. Sonralar heyvandarlığın əkinçilikdən ayrıldığı güman edilir. Daha sonra sənətkarlığın yaranması, mübadilə qaydalarının formalaşması, ticarət münasibətlərinin mənimsənilməsi, kapital yığımının meydana gəlməsi mümkün olmuşdur. Bütün bunlar qədim dövrün insanlarının, fikrimizcə, iqtisadi fəaliyyət mexanizminin xarakterik xüsusiyyətlərini tərənnüm etdirirmiş.

İnsanların iqtisadi düşüncə tərzi, dünyagörüşü, mədəniyyəti təkamül mərhələlərini aşaraq, inkişaf etmiş və nəticəyə gəlinmişdir ki, iqtisadi münasibətlər ümumi bir sistem yaradaraq, aşağıdakı tərkib hissələrinə malikdir: istehsal münasibətləri sistemi,

mübadilə (ticarət: alqı-satqı) münasibətləri sistemi, istehlak münasibətləri sistemini özündə birləşdirir.

Hesab edirik ki, onların hər biri iqtisadi mexanizmin tərkib hissələrindən ibarətdir. Diqqət mərkəzində saxlanmalıdır. Hər birinin özünəməxsus mexanizmi mövcuddur, fərdi xüsusiyyət və inkişaf qanunauyğunluqlarına malikdirlər.

***İstehsal münasibətləri sistemi elə bir təsərrüfatçılıq mexanizmidir*** ki, iki qrup fəaliyyət dairəsini özündə birləşdirir: maddi məhsullar istehsal olunur və müəyyən növ xidmətlər göstərilir. Maddi məhsullar torpağın səthindən əldə edilir (kənd təsərrüfatı məhsulları istehsal edilir) və torpağın təkindən - mədənlərdən ha-sil edilir. Kənd təsərrüfatı məhsulları (dənlilər, kartof, tərəvəz, mal-qara və quşlar, diri çəkidə yetişdirmə, süd, yun və s.) və hasilat sahələrinin məhsulları (xam neft, qaz, digər faydalı qazıntılar və metallar) ilkin və təkrar emal mərhələlərini keçdikdən sonra insanların və iqtisadiyyat subyektlərinin tələbatının ödənilməsi keyfiyyətinə malik olur. İstehsal münasibətləri mexanizminin əsas funksiyası sərəncamda olan əsas istehsal vasitələrindən: torpaq və əmək ehtiyatlarından, kapitaldan (uzun müddətli və qısa müddətli aktivlərdən, yəni əmək vasitələri və əmək cismlərindən, pul ehtiyatlarından) səmərəli istifadə etmək, israfçılığa yol verməmək, istehlak bazarının tələbatını ödəmək, məhsulların keyfiyyətini yüksəltmək və s. funksiyalar ilə səciyyələndirilir.

Müəyyən növ xidmətlərin göstərilməsi istehsal münasibətlərinin daxili xüsusiyyətlərindən irəli gəlir. İstehsal münasibətləri inkişaf etdikcə xidmətlərin rolu və əhəmiyyəti də dəyişikliyə məruz qalır. Kəmiyyət və keyfiyyət dəyişiklikləri baş verir. Belə ki, ingilis iqtisadçısı V. Petti hələ 300 il əvvəllərdə belə bir iddia irəli sürmüşdür ki, müəyyən müddətdən sonra xidmətlərin xüsusi çəkisi xeyli artacaq, üstünlüyə malik olacaq və maddi istehsalın payı azalacaqdır [2, 31].

Ədəbiyyatlarda bildirildiyinə görə, Azərbaycanda, 2005-2009-cu illərdə, ümumi daxili məhsulun tərkibində sənayenin xüsusi çəkisi 58,5%-ə, kənd təsərrüfatında 7,3%-ə, tikinti üzrə 8,2%-ə bərabər olmaqla, xidmət sahələrinin payı 26,0%-lə dünya ölkələri arasında ən aşağı yeri tutmuşdur. Digər MDB ölkələri arasında xüdmətlərin xüsusi çəkisi 36,0% (Türkmənistanda) və 64,8% (Moldova) arasında dəyişmişdir. Bu göstərici İran İslam Respublikasında 48,0%, Gürcüstanda 65%, Rusiya Federasiyasında 58,9%, inkişaf etmiş ölkələrdə daha yüksək paya malikdir [2, 531]. Azərbaycanda xidmətlərin xüsusi çəkisinin aşağı səviyyədə olmasının əsas səbəbi neft və qaz hasilatının inkişaf xüsusiyyətləri ilə əlaqədar olsa da, müvafiq xidmət sahələrinin, o cümlədən, kənd təsərrüfatının xidmət sahələrinin zəif inkişaf etdirilməsi ona xeyli təsir göstərmişdir. Başqa sözlə, xidmət sahələrinin inkişaf etdirilməsinə xüsusi diqqətin yönəldilməsi və uçot-hesabat işlərinin təkmilləşdirilməsi xidmət mexanizminin hərəkətini sürətləndirən amillərdən hesab edilir.

***Mübadilə (ticarət) münasibətləri sistemi*** istehsal münasibətləri sisteminin davamı və istehlak münasibətləri sistemi ilə qarşılıqlı əlaqələrin yaradılmasının əlverişli vasitəsi və vasitəçisi hesab edilir. Bu sistem özünəməxsus mexanizmə malikdir. Mayası mübadilə münasibətləri üzrə formalaşan ticarət münasibətləri, təka-mül prosesinin məhsulu sayılsa da, əksliklərin vəhdəti və mübarizəsi qanununun təsiri altında inkişaf edərək, satış və alış münasibətləri sistemini formalaşdırır. Satıcı və alıcı arasında baş verən münasibətləri əhatə edir. Onun fərdi (spesifik) xüsusiyyətləri vardır: bilavasitə istehlakçılara (emal müəssisələrinə) satış; topdansatış və tədarük təşkilatlarına satış; yol kənarında, təsərrüfatın ərazisində, ixtisaslaşdırılmış satış yerlərində pərakəndə ticarət

üsulu ilə məhsulların istehlakçılara çatdırılmaşı; natural formada mübadilə. Mübadilə münasibətləri mexanizminin səmərəli fəaliyyətinə təsir edən amillərə daxil etmək olar: təklifin tələbata uyğunluğu, əlverişli qiymət mexanizminin fəaliyyət göstərməsi, məhsul və xidmətlərin keyfiyyəti, məhsulların çeşidlənməsi, qablaşdırılması, saxlanması, daşınması prosesləri üzrə keyfiyyətli xidmətlərin vaxtı-vaxtında göstərilməsi və s.

İqtisadi münasibətlər sisteminin bu mərhələsində istehsalçıların məhsul və xidmətləri özlərinin natural formasını dəyişir və pul formasına çevrilir. İstehlakçıların tələbatı ödənilir və onların sərvətinin bir hissəsi pul formasından maddi məhsullar və xidmətlər formasına çevrilir.

***İstehlak münasibətləri sistemi*** iqtisadi münasibətlər sistemində sonuncu yer-də yerləşsə də, birinci mərhələnin, istehsal münasibətləri sisteminin təkanverici qüvvəsi hesab edilir. Birinci mərhələnin məhsul və xidmətləri özlərinin dəyərini, istehlak dəyərinə malik olmasını məhz bu mərhələdə təsdiq edə bilir. Məhsul və xidmətlərin faydalılıq səviyyəsi və əlamətləri məlum olur, üzə çıxır. Təkrar istehsalın zəruriliyi özünü təzahür etdirə bilir. Məhsul və xidmətlərin istehlak mexanizmi iki əsas qrupa bölünür: son istehlaka sərf edilir və aralıq istehlak üçün istifadə olunur.

Son istehlak dedikdə, bu və ya digər məhsul və xidmətlər əhalinin fərdi tələ-batının ödənilməsinə yönəldilir. Məsələn, ərzaqla təminatına və təhlükəsizliyinin təmin olunmasına, gündəlik tələbat (uzun müddətli və qısa müddətli istifadə) mallarına ehtiyacın ödənilməsinə yararlı olur. Müvafiq məqsədə xidmət göstərir və onların vasitəsilə firavan həyat tərzi təmin olunur.

Aralıq istehlak üzrə mal və xidmətlər iqtisadiyyat sisteminin tələbatının ödənilməsi məqsədini reallaşdırır (həyata keçirir). İqtisadiyyat sahələrinin subyektləri özlərinin fəaliyyətini təmin etmək və öhdəliklərini yerinə yetirmək üçün uzun müddətli və qısa müddətli aktivlərə malik olmalıdırlar. Yəni əsas istehsal vasitələri və dövriyyə vasitələrinə (xammal və materiallara) malik olmalıdırlar ki, istehsal və təkrar istehsal münasibətlərini təşkil etsin, həyata keçirsin və onun nəticəsində öhdəliklərini yerinə yetirə bilsinlər.

Tədqiqatlar göstərir ki, istehsal sahələrinin (subyektlərin) xammal və materiallarla təminatının bir neçə üsullarından istifadə edilir: özlərinin istehsal etdikləri məhsul və xidmətlərdən istifadə edilir, istehlak bazarından alınmış məhsul və xidmətlərdən istifadə olunur, əvəzsiz verilmiş məhsul və xidmətlər ilə istehsal və xidmət sahələrinin iqtisadi mexanizminin fəaliyyəti təmin edilir, xüsusi təchizat subyektləri vasitəsi ilə məqsədli və güzəştli təminat və s.

Göstərmək vacibdir ki, son dövrdə Avropa məkanından təbliğ edilən və səbəbi məlum olmayan (nəzəriyyələrin keyfiyyətsizliyini də nəzərə almaq olar) iqtisadi düşüncə tərzində yuxarıda göstərilən nəzəriyyələr özünə yer tutmur. Onları əvəz edən kommersiya fəaliyyəti, markentiq, biznes və s. yeni anlayışlar iqtisadi ədəbiyyatlara daxil edilmiş və daha geniş yayılır. Hətta şərəfli fəaliyyət sahəsi sayılan sahibkarlıq "biznesmen" adlandırılır. Bütün belə halların nəticəsidir ki, iqtisadi nəzəriyyələr keyfiyyətsiz hazırlanır və gənc nəsil arasında iqtisadi savadsızlıq kütləvi hal alır. Nəticəni isə belə səciyyələndirmək olar: pula hərislik; hansı yolla olursa-olsun kapital torpamaq; kapital sahibi, kapitalist olmaq; məntiq və qanuna-uyğunluq pozulur; istehsalın təşkili və idarə edilməsi, halal yolla pul qazanmaq kimi məsələlər arxa plana keçir və unudulur; gələcək nəsillərdə istehlak bazarının təklifinin təmin olunmaması üçün zəmin yaradılır və s. mənfi təzadların ehtimalı çoxalır. Fikrimizcə, iqtisadi

münasibətlər sisteminin səmərəli mexanizmini istehsal, mübadilə (ticarət) və istehlak üçlüyünü ardıcıllıqla təşkil və idarə etmək, səmərəli qarşılıqlı əlaqələr yaratmaq, təhlillər aparmaq, inkişaf qanunlarını öyrənmək, nöqsanları üzə çıxarmaq və onların aradan qaldırılması üçün real tədbirlər görmək hər zaman və bütün cəmiyyətlər üçün qanunauyğun və məqsədyönlü fəaliyyət sistemi (mexanizmi) sayılır və sayılacaq.

İqtisadi münasibətlər sistemini yuxarıda göstərilmiş üç mərhələ üzrə nəzərdən keçirmək əlverişli təhlil işlərinin aparılması, qanunauyğunluqların: təklifin tələbata uyğunluğu (tarazlığı), dəyər, keyfiyyət, səmərəlilik və s. iqtisadi qanunların fəaliyyət xüsusiyyətlərinin öyrənilməsində olduqca əhəmiyyətli hesab edilir.

Ümumiyyətlə, iqtisadi mexanizm və onun ayrı-ayrı tərkib elementlərinin (mexanizmlərinin) iqtisadi-statistik qiymətləndirilməsi zamanı bu xüsusiyyətlərin hər birini nəzərə almaq və dəyərləndirmək çox mühüm əhəmiyyət kəsb edir.

Müşahidələr deməyə əsas verir ki, ölkənin kənd təsərrüfatı istehsalçılarının istehlak bazarının mexanizmi səmərəli fəaliyyət göstərmir və müəyyən çatışmazlıqlara malikdir: xammal-materiallarını əsasən pərakəndə ticarət şəbəkəsindən özləri alırlar və yüksək səviyyədə qiymətlərlə alınır. Bu da istehsal xərclərinin artımına bilavasitə səbəb olur.

İstehlak münasibətləri mexanizminin özünəməxsus xüsusiyyətlərindən biri istehsal münasibətlərinin təkrarlanması və mərhələli olması ilə səciyyələndirilir. Belə ki, buğda istehsalı hələ tələbatın ödənilməsi demək deyildir. Buğda əsasən insanın çörək və digər un məhsullarına olan tələbatının ödənilməsinə xidmət göstərir. Odur ki, ilkin emal nəticəsində ondan un istehsal olunur. Un çörəkbişirmə sənayesinin, yaxud un məmulatları istehsalının xammalı kimi çıxış edir və təkrar istehsal mərhələsində iştirak edir. Ondan hazırlanmış çörək və un məmulatları son istehlaka yararlı olur. Yaxud kənd təsərrüfatında istehsal edilən pambıq, yun, barama bir neçə mərhələdə təkrar istehsal üçün xammal kimi çıxış edir: ilkin emaldan sonra alınan ipliklər toxuculuq sahələrinin xammalı olur, ondan alınan məhsullar boyaq və naxışvurma mərhələsini keçir və tikiş sənayesinin xammalına çevrilir. Nəhayət, hazır parçadan tikilmiş geyim şeyləri: köynək, kostyum, ayaqqabı və s. son istehlak mexanizminin səmərəli fəaliyyətinə xidmət göstərmiş olur. Təkrar istehsal mərhələlərində isə yalnız aralıq istehlak mexanizmi hərəkətə gətirilir. Hər hansı bir mərhələdə xammal və material çatışmazlığı dərhal istehsal mexanizminin fəaliyyətinə təsir göstərir, sürətni azaldır və yaxud istehsal prosesi dayanır.

Sahibkarlığın tərkibinin inkişaf etdirilməsinin təşkilati-iqtisadi mexanizminin təsviri məqsədi ilə adətən üç əsas anlayışdan istifadə edilməsi məqsədəuyğun sayılır: "mexanizm", "inkişaf" və "sahibkarlığın tərkibi" (quruluşu, strukturu).

Sahibkarlığın tərkibi dedikdə, ilk növbədə, mübadilə (bazar, ticarət) münasibətlərinə girən iqtisadi subyektlərin məcmusu nəzərdə tutulur. Onun tərkibinə daxil edilir: sahibkarlıqdan gəlir (mənfəət) əldə edən təsərrüfat (iqtisadi) vahidləri, onların ticarət, sahə və ictimai birlikləri. Belə birliklərin də əsas vəzifəsi (funksiyası) son nəticədə birləşmək və gəliri (mənfəəti) artırmaq məqsədini özündə ifadə edir. Müasir dünyada mənfəət əldə edilməsi yalnız iqtisadi deyil, həm də sosial və ekoloji aktivliyə şərait yaradır, eyni zamanda, onlardan bilavasitə asılı olur.

Hazırkı vaxtda sahibkarlığın tərkibi çoxmərhələli xarakter daşıyır. Onlar yalnız horizontal (üfqi) deyil və həm də vertikal (şaquli) əlaqələr üzrə təşkilatlanırlar, korporativ, yerli, federal (milli) və ölkələrarası mərhələlərinə görə təsnifləşdirilir və

qruplaşdırılırlar. Eyni zamanda, vertikal (şaquli) əlaqələr üzrə, yuxarıda göstə-rilən qaydalardan fərqli təşkilatlanma xüsusiyyətinə də malikdirlər. Yəni korporasiya olunmuş birlik və ayrı-ayrı istehsal subyektləri müstəqil olaraq ölkələrarası sahibkarlıq subyektlərinin tərkibinə daxil olmaq təcrübəsi geniş yayılmışdır. İstehsal fəaliyyəti üzrə (sindikat, holdinq, konsern, kartel, kooperativ, korporasiya, transmilli korporasiya və s.), sahəvi fəaliyyət növləri üzrə, sahibkarlıq fəaliyyətinin ümumi problematikası üzrə beynəlxalq tərkibin (quruluşun) müşahidə olunması mümkündür.

***"Mexanizm" anlayışı müxtəlif mahiyyət kəsb edir: 1) apparat (idarə, təşkilat, müəssisə, idarə orqanları; texniki - cihaz, alət, mexanizm, qurğu; fizioloji - orqanizmdə müəyyən vəzifə ifa edən orqanlar); 2) mexanika, texniki proses və emal prosesi; 3) mexanizm elə bir prinsip kimi qəbul edilir ki, bu prinsip təbiət və cəmiyyətin inkişafının materianın hərəkətinin mexaniki formada baş verməsi qanunlarına uyğunluğunu iddia edir; 4) iş mexanizmi, fəaliyyət prinsipi, iş üslubu; 5) qanunauyğunluq***

Mexanizm dedikdə, iqtisadi təfəkkürdə, müəyyən fəaliyyət növünün hər hansı bir qaydasını müəyyənləşdirən sistem, quruluş nəzərdə tutulur. Təsərrüfat mexanizmi proseslərin məcmusu, idarəetmənin təşkilati quruluşu, forma və metodlarını, habelə iqtisadi qanunlar və təkrar istehsal proseslərinin normal fəaliyyətinin təmin edilməsinə şərait yaradan hüquqi normaları özündə ifadə etdirir.

Təsərrüfat mexanizmini formalaşdıran mühüm quruluş əlamətlərinə aşağıdakıları daxil etmək olar:

- *ictimai istehsalın təşkili formaları (əmək bölgüsü, istehsalın ixtisaslaşması, onun yerləşdirilməsi və s.).* Onların vasitəsi ilə cəmiyyətin məhsuldar qüvvələrinin inkişafına bilavasitə təsir göstərilir və nəticədə bu məhsuldar qüvvələrdən səmərəli istifadə olunma səviyyəsi yüksəldilir;
- *təsərrüfatçılıq əlaqələri forması.* Bu zaman iqtisadiyyatda mübadilə münasibətləri baş verir, o cümlədən, istehsalın dövriyyə vəsaitlərinin mübadiləsi mümkün olur, maliyyə-kredir münasibətləri və s. proseslər baş verir;
- *planlaşdırma və idarəetmə forma və metodları.* Bu halda iqtisadi, hüquqi, sosial, psixoloji və s. münasibətlərin səmərəliliyi təmin edilmiş olur;
- *iqtisadi vasitə və stimulların* (hərəkətəgətirici səbəb, şirnikdirici, həvəs və maraq oyadıcı amillərin) *məcmusu.* Bu halda istehsala və təsərrüfat fəaliyyəti göstərən subyektlərə bilavasitə təsir göstərilir, onların vasitəsi ilə təsərrüfat fəaliyyətində uyğunlaşdırma və stimullaşdırma tədbirləri həyata keçirilmiş olur.

Həm nəzəri və həm də praktiki cəhətdən iqtisadi mexanizm müasir dövrdə olduqca geniş mahiyyət kəsb edir. Təsərrüfat mexanizmi sistemində iqtisadi mexanizm mərkəzi qurum kimi nəzərdən keçirilir. Onun vasitəsilə ictimai, qrup və fərdi mənafelər (maraqlar) arasında əlaqələr yaradılır. Milli iqtisadiyyatın fəaliyyəti və inkişaf etdirilməsi, beynəlxalq iqtisadi məkanda inteqrasiya olunması üçün mühüm əhəmiyyətli bir iqtisadi metod və vasitə rolunu yerinə yetirir.

## 2. İqtisadi mexanizm barədə iqtisadçı alimlərin düşüncələri

İqtisadi mexanizm həm də iqtisadi qanunların həyata keçirilmə üsulu hesab edilir. Onu formalaşdıran elementlərə daxil edilir: müəyyən təşkilati-iqtisadi mexanizmlərə uyğun gələn dövlət siyasəti, maliyyələşdirmə, investisiya, kreditləşdirmə, maliyyə və material vəsaitlərinin ehtiyatlarının yaradılması, sığorta və təkrar sığorta, dəymiş

ziyanın bərpa edilməsi, iqtisadi stimullaşdırma, iqtisadi məsuliyyət və digər çoxlu iqtisadi münasibətlərin səmərəliliyi.

Təşkilati-iqtisadi mexanizmlərdən danışarkən, ilk növbədə, iqtisadi mexanizm nəzəriyyəsinin əsaslarına diqqət yönəldilir. 2007-ci ildə Leo Qurviç, Rocer Mayerson və Erik Maskinə iqtisadiyyat üzrə Nobel mükafatı məhz iqtisadi mexanizm nəzəriyyəsindəki nailiyyətlərinə görə verilmişdir. Nobel mükafatı laureatlarının bu əsərinin təhlilini S. B. İzmalkov, K. İ. Sonin və M. M. Yudkeviç özlərinin birgə yazdıqları məqalədə vermişlər [3].

**İqtisadi mexanizmin tədqiqinə töhfələr.** L. Qurviçin iqtisadiyyat elminə verdiyi əsas töhfə iqtisadi mexanizm nəzəriyyəsinin özündən ibarət olmuşdur. Onun xidmətləri müxtəlif vəzifələr çərçivəsində iqtisadi proseslər zamanı informasiyanın ötürülməsinin formal modelləşdirilməsi zərurətini nümayiş etdirməklə səciyyələndirilmişdir. Qurviç belə təhlil üçün dil təklif etmişdir, o cümlədən, mexanizm anlayışını təklif etmiş, stimulların uyğunlaşdırılması şərtlərini müəyyən etmiş, mexanizmlərin tədqiqinin əsas istiqamətlərini vermişdir, habelə mexanizmin yayımlanması zərurəti barədə müzakirə açmışdır.

R. Mayersonun xidmətləri optimal auksionların (hərracların) problematikasının tədqiqi ilə qiymətləndirilir. Onun tədqiqatlarının ilkin səbəbi 1981-ci ildə yazdığı və iqtisadiyyat elminin klassikasına çevrilmiş optimal auksionlar (hərraclar) barədə məqalədən ibarət olmuşdur. O, optimal auksion (hərrac) yaradılması vəzifələrinin öyrənilməsi ilə məşğul olmuşdur, o cümlədən, valrasov auksionunun (hərracının) nümunəsini əsaslandırmışdır.

E. Maskinin iqtisadi mexanizmlər nəzəriyyəsinə verdiyi töhfə ondan ibarət olmuşdur ki, o, əldə edilmiş mexanizmlərin tələb olunan bütün tarazlıqlarının arzu edilən iqtisadi funksiyaların yaradılmasına uyğunlaşdırılması üçün şərait yaradan implementasiya vəzifələrini formalaşdırmağa nail olmuşdur. O, həm də konkret mexanizm, xüsusən də implementasiyanın universal mexanizmini təklif etmişdir.

“İmplementasiya” anlayışı “impleo” latın sözündən əmələ gəlmişdir, doldururam, icra edirəm, yerinə yetirmək, əməl etmək, həyata keçirmək mənaları kəsb edir. Dövlətin beynəlxalq hüquqi normaları yerinə yetirmək, həyata keçirmək öhdəliyinin icrası isə səciyyələndirilir. Hər bir dövlət implementasiya metodları və vasitələrini özü müəyyənləşdirir. Beynəlxalq müqavilələrdə, onun həyata keçirilməsi məqsədi ilə, implementasiyanın yerinə yetirilməsi üçün qanun və yaxud digər hüquqi aktın qəbul edilməsi barədə öhdəlik öz əksini tapa bilər.

Hal-hazırda iqtisadi mexanizmlər nəzəriyyəsinin inkişaf etdirilməsi davam edir. V. A. Slepov, V. K. Burlaçkov və K. V. Orlov iqtisadi mexanizmlərin tədqiqatında informasiya və funksional yanaşmaları xüsusilə əhəmiyyətli hesab edirlər. İqtisadi mexanizmlər nəzəriyyəsində belə yanaşmaların məhdudluğunun aradan qaldırılması inteqral (qarşılıqlı əlaqəli) yanaşma çərçivəsində mümkün hesab edilir [4].

İqtisadi tədqiqatlarda “mexanizm” anlayışının qeyri-müəyyənliyi barədə məsələni nəzərdən keçirərək, A. Y. Çalenko iqtisadi mexanizmin aşağıdakı fərqli xüsusiyyətlərini göstərmişdir:

- mexanizm prosessiz mövcud ola bilməz. Belə ki, proses mexanizmin tərkib hissəsi hesab edilir və mexanizm ancaq proses funksiyalarının yerinə yetirilməsi üçün tarazlaşdırılır;

- mexanizm özünün idarəetmə funksiyasına malik deyildir. Odur ki, “hərəkətsizləşdirilmiş” hesab edilir və proses tərəfindən idarə edilməsini gözləmə vəziyyətində tarazlaşdırılmışdır;
- mexanizmin idarə etmə ilə birləşdirilməsi prosesin daxili mahiyyətini müəyyənləşdirir [5].

Akademik S. N. Vasilyevanın rəhbərliyi altında Rusiya EA İdarəetmə problemləri institutunun əməkdaşlarının elmi işlərində iqtisadi sistemlərin idarəetmə mexanizminin bəzi əlamətləri aşağıdakı kimi şərh edilir:

- *sistemin fəaliyyət mexanizmi* (təşkilatı, sosial-iqtisadi, ekoloji-iqtisadi aspektlərdə) onun iştirakçılarının qarşlıqlı fəaliyyətini tənzimləyən qayda və üsulların məcmusundan ibarətdir;
- *idarəetmə mexanizmi* idarəetmə qərarlarının qəbulu üsulları və həyata keçirilmə alətlərinin məcmusunu ifadə edir.

### 3. İqtisadi mexanizmi müəyyənləşdirən əsas prinsiplər

Ərazi təşkilatlanma resursları (ehtiyatları) hesabına sahibkarlığın tərkibinin inkişaf etdirilməsi müvafiq ərazinin özünün təşkilatlanmasının inkişaf etməsinə təsir (xidmət) göstərməlidir. Buna müvafiq surətdə, ərazicə təşkilatlanma resurslarını (ehtiyatlarını) sahibkarlıq quruluşunun ərazi (dövlət və ya yerli) idarəetmə orqan-larının idarə edilməsinə təhvil verirlər. Bu da, son nəticədə, həm də sahibkarlıq quruluşunun inkişafının təşkilati-iqtisadi mexanizminin mahiyyətini müəyyənləşdirir, ərazi təşkilatlanmasının inkişaf etdirilməsi məqsədi ilə sahibkarlıq quruluşunun fəaliyyət qaydalarını öyrənir və onu təkmilləşdirir.

Məlumdur ki, iqtisadi münasibətlər sisteminin (mexanizminin) fəaliyyət səhnəsində aparıcı yeri iqtisadi subyektlər tutur. Onları bəzən də iqtisadi agentlər adlandırırlar [7,50]. İqtisadi subyektlər iqtisadi mexanizmin bütün aspektlərinin təşkili, hərəkətə gətirilməsi, idarə edilməsi və inkişaf etdirilməsinin ilkin özəyi, rüşeymi sayılır. Onlar iqtisadi münasibətlər sistemində fəaliyyət motivinə görə iki kateqoriyaya bölünürlər: *maddi məhsullar istehsal edirlər, xidmətlər göstərirlər*. Məqsədlərinə nail olmaq üçün həyata keçirdikləri fəaliyyətin hüquqi-təşkilatı və qanunauyğunluğu baxımından da iki kateqoriyaya bölünürlər: *hüquqi və fiziki şəxs statusuna malik olurlar*.

İqtisadi mexanizmdən danışarkən, lik növbədə, onun *qanunvericilik mexanizmindən* başlamaq əhəmiyyətli sayılır. Dövlətin iqtisadi qanunvericilik aktları onun qanunvericilik mexanizmini təşkil edir. Müvafiq tematik məcəllələr, qanunlar, sərəncamlar, fərmanlar və qərarlara uyğun olaraq sahibkarlığın fəaliyyət sahələri yaradılır, onların sərbəst və səmərəli fəaliyyəti təmin edilir, bazar iqtisadiyyatı qanunlarına uyğun, hüquqları, mənafeləri, mülkiyyətinin müdafiə edilməsi üçün zəmin yaradılır, dövlətin tənzimləmə tədbirləri müəyyənləşdirilir və həyata keçirilir. Dövlət azad sahibkarlıq üçün əlverişli fəaliyyət mühiti yaratmaqla yanaşı, dövlət və ümummilli mənafelərin təmin edilməsi baxımından müəyyən stimullaşdırıcı və məhdudlaşdırıcı tədbirlərin həyata keçirilməsi məqsədəuyğun sayılır.

İqtisadi mexanizmin ikinci əsas aspekti təşkilati və idarəetmə məsələlərini özündə əks etdirir. Onların hər biri özlüyündə bir mexanizm təşkil edir. Onun təşkilati mexanizmi hüquqi və fiziki şəxslərə bölünməsi ilə səciyyələndirilir. Məhz hüquqi və fiziki şəxslər iqtisadi mexanizmin sükançıları hesab edilirlər. Onların təşkilati və idarəetmə təcrübəsi bu mexanizmin səmərəli fəaliyyətini təmin etmiş olur. Hər biri

müəyyən qanunauyğunluq əsasında formalaşır, öz məqsədini müəyyənləşdirir, seçim edir: maddi məhsul istehsal edir və ya müəyyən növ xidmətlərin gostərilməsi üçün sərbəst surətdə öhdəliklər götürür, onları öz məsuliyyəti altında yerinə yetirir. Təşkilati mexanizmin başqa məsələsi iqtisadi münasibətlərin mülkiyyət mənsubiyyətliyinə görə müəyyənləşdirilir. Dövlət mülkiyyəti, fərdi (şəxsi), kollektiv (qrup, birgə, qarışıq) mülkiyyət formalarına görə fəaliyyət nəticələrinin səciyyələndirilməsi məqsədini güdür. Məhsul istehsalı və xidmətlər göstərilməsinin kəmiyyət əlamətinə görə təşkilati mexanizminin üç tərkib hissəsi bir-birindən fərqləndirilir: kiçik, orta və iri sahibkarlıq formaları üzrə iqtisadi-statistik qiymətləndirmələr həyata keçirilir. Göstərilən təşkilati mexanizmlərin hər birinin hərəkətə gətirilməsi və səmərəli fəaliyyət göstərməsinin dörd əsas ünsürü vardır: torpaq, əmək, kapital və sahibkarlıq məharəti.

Məsələn, kənd təsərrüfatında torpaq əsas istehsal vasitəsi hesab edilir. Kənd təsərrüfatına yararlı torpaq ehtiyatlarının: əkin sahələri (dincə qoyulanlar da daxil edilməklə), çoxillik əkmələr, biçənək və otlaq sahələrinin mövcudluğundan asılı olaraq, əkinçilik, meyvəçilik və ya heyvandarlıq sahələrinin inkişaf etdirilməsi mümkün olur, müvafiq seçim edilir və qərar qəbul olunur.

Əmək müvafiq istehsal və xidmət sahələrinin təşkilinin əsas şərtidir. Əməksiz heç bir iqtisadi münasibət baş vermir. Əmək iqtisadi münasibətlərin fərdi və ictimai mənafelərinin müəyyən edilməsi və məqsədə nail olmağın əsas əlamətidir. Faydalı və məhsuldar əmək iqtisadi mexanizmi hərəkətə gətirir, bütün ehtiyatlardan səmərəli istifadə üçün əlverişli şərait yaradır.

Kapital iqtisadi mexanizmin hərəkətə gətirilməsinin əsas amillərindən biridir. Müasir iqtisadi münasibətlərin intensiv inkişafında daha çox əhəmiyyət kəsb edir. İqtisadi subyektlərin maddi-texniki bazasını formalaşdırmaq, texnologiyaları təkmilləşdirmək, elmi-texniki nailiyyətləri istehsalata tətbiq etmək, uzun müddətli və qısa müddətli aktivləri hərəkətə gətirmək və onlardan səmərəli istifadə etmək, kənd təsərrüfatına yararlı torpaq sahələri və əmək ehtiyatlarından məqsədyönlü istifadəni təmin etmək kimi funksiyalar məhz kapital vasitəsi ilə yerinə yetirilir və mümkün olur. Kapital özünün üç elementinə malik olur: *uzun müddətli aktivlər* - əsas istehsal vasitələri, əmək vasitələri; *qısa müddətli aktivlər* - dövriyyə vasitələri, əmək cismləri; *pul ehtiyatları*.

Sahibkarlıq məharəti iqtisadi münasibətlər "masasının" (sisteminin) dördüncü mühüm elementi (əlaməti) sayılır. Əvvəlki üç əsas amildən (ehtiyatlardan) səmərəli istifadə edilməsi məhz sahibkarın məharətindən asılı olur. Hamıya yaxşı bəllidir ki, məişət masasının ayaqlarından birinin olmaması, qısa olması, oynaması onun rahat oturmasına imkan vermir, adamları narahat edir və istəyinə nail ola bilmirlər. İqtisadi münasibətlər sistemi də buna bənzəyir.

Sahibkarlıq məharətinin zəifliyi "üç qardaşın" birləşərək səmərəli fəaliyyətini təmin etməyə şərait yaratmır. Yəni torpaq, əmək və kapitaldan səmərəli istifadə etmək mümkün olmur. İqtisadi mexanizm yaxşı işləmir, səmərəli nəticələr əldə edilmir.

Bir qrup rus iqtisadçı-alimlərin düşüncəsinə görə, iqtisadi nəzəriyyə elə bir üniversal elmdir ki, öz predmetini insanların ehtiyatlar seçmək və iqtisadi fəaliyyət dairəsi üzrə problemlərin həlli yollarının öyrənilməsinə yönəldir. Bu nöqteyi-nəzərdən çıxış edərək, onlar bildirirlər: iqtisadi nəzəriyyə elə bir ictimai elm sahəsidir ki, məhdud ehtiyatlar şəraitində, insanların tələbatını ödəmək məqsədi ilə maddi nemətlərin istehsalı, mübadiləsi və istehlakı mərhələlərindəki münasibətləri öyrənir. Burada

məhdud ehtiyatlar dedikdə heç də fiziki mahiyyəti nəzərdə tutulmur (baxmayaraq ki, real həqiqət kimi mövcuddur), cəmiyyət üzvlərinin hamısının tələbatının hər yerdə, həmişə və tam ödənilməsinin mümkünsüzlüyü əsas götürülür. Ehtiyatların məhdudluğu onlardan istifadə olunması uğrunda rəqabət (yarış, mübarizə) yaradır. Bu mübarizə (rəqabət) ehtiyatların mövcudluğu və onlardan istifadə etmək imkanları arasındakı ziddiyyətlərin mövcudluğundan xəbər verir. Metodoloji bir elm kimi iqtisadi nəzəriyyə, ilk növbədə, cəmiyyətin inkişafı prosesin-də istehsal və mübadilənin vəziyyətinə dair məsələləri tədqiq edir. Çünki cəmiyyət üzvləri əməyin nəticələrini: maddi, mənəvi və sosial nemətləri istehsal və mübadilə etmədən yaşaya bilməzlər. Onların istehsalı və mübadilə sferasına daxil olmasında davamlı inkişafa nail olmaq cəmiyyətin iqtisadi inkişafını təmin edir. Cəmiyyətin iqtisadi inkişafı ictimai faydalı əməyin nəticələrini özündə əks etdirir, onun mənəvi və etik bünövrəsini səciyyələndirir. İqtisadi artım elə bir göstəricidir ki, iqtisadi inkişafın dinamikasını səciyyələndirən mənbə hesab edilir. Ona görə də ümumi iqtisadi nəzəriyyənin predmetinə həm təkrar istehsal münasibətləri sisteminin mərhələlərinin: *istehsal, bölgü, mübadilə və istehlak münasibətlərinin* dinamikliyinin və həm də ictimai inkişafın ("uzun zəncirvari dalğanın") digər müxtəlif proseslərinin inkişaf qanuna-uyğunluqları və iqtisadi artım amillərinin öyrənilməsi daxil edilir. [6, 18].

Sxem 1. İqtisadi münasibətlər sisteminin ümumi sxemi




Göstərilən fikirlər ilə qismən həmrəy olsaq da, bazar iqtisadiyyatı şəraitində istehsal münasibətləri sistemini dörd deyil, üç mərhələyə bölməyi: istehsal, mübadilə və istehlak münasibətlər sistemini iqtisadi mexanizmin özülü (fırlanan mili, təməli) hesab edirik. Onların inkişaf qanunauyğunluqlarının öyrənilməsi, ümumi və spesifik anlayışlarının (statistik göstəricilərin) mahiyyətini müəyyən etmək, metodologiyaların

işlənib hazırlanmasını iqtisadi nəzəriyyələrin (ümumi iqtisadi nəzəriyyə və ayrı-ayrı iqtisadi fəaliyyət sahələrin) əsas vəzifəsi olduğunu düşünürük. Həmkarlarımızın təklif etdikləri bölgü münasibətləri iqtisadi münasibətlərin inzibati-amirlik sistemi şəraitində qanunauyğun sayıla bilər və bazar iqtisadiyyatı şəraitində bir o qədər əhəmiyyət kəsb etmir. Keçmiş SSRİ iqtisadiyyat sistemində mərkəzdən planlaşdırma və bölgü prinsipləri mahiyyət etibarı ilə maddi nemətlərin istehsalçılarından istehlakçılara çatdırılması funksiyalarını yerinə yetirirdisə, bazar iqtisadiyyatı şəraitində bu funksiyalar mübadilə (alqı-satqı, ticarət) münasibətləri vasitəsi ilə həyata keçirilir.

İqtisadi subyektlər (fiziki və hüquqi şəxslər) iqtisadi mexanizmin təməl prinsiplərini formalaşdıraraq, istehlak bazarının həm tələbatını yaradır və həm də təklifini irəli sürürlər. Bunu sxematik olaraq, yuxarıdakı (sxem 1) kimi ifadə etmək olar.

Birinci mərhələdə istehsal olunan məhsullar, yerinə yetirilən işlər və göstərilən xidmətlər üçüncü mərhələdə istehlakçıların tələbatını ödəmək xüsusiyyətini daşıyır. Hər iki tərəfin iştirakçısı fiziki və hüquqi şəxslərdən ibarətdir. Onlar bir-biri üçün əkslik təşkil edirlər. İstehsalçı izafi məhsul istehsalı və xidmətlər göstərmək bacarığına malikdir. İstehlakçı isə tələbatının ödənilməsi üçün müəyyən məbləğdə pul ehtiyatlarına malikdir. Onların hər ikisi istehlak bazarının zəruri iştirakçıları hesab edilirlər. Burada məhsul və xidmətlərin pulla mübadiləsi baş verir. Mübadilənin səmərəli baş verməsi üçün onun əlverişli mexanizmi fəaliyyət göstərməlidir. Bu mexanizmin əsas əlamətlərinə daxil edilir: tələbatın təklifə uyğunluğu (kəmiyyət, növçeşid və keyfiyyət əlamətləri üzrə); əlverişli qiymət siyasətinin həyata keçirilməsi. Birinci əlamətin düzgün qiymətləndirilməsi üçün həm tələbatın və həm də təklifin kəmiyyət və keyfiyyəti barədə dəqiq informasiya tələb olunur. Tələbat dedikdə, hər hansı bir cəmiyyətin tərkib mexanizmi nəzərə alınır və aşağdakı elementləri özündə birləşdirir: *əhalinin tələbatı, istisadiyyat sahələrinin tələbatı və xarici iqtisadi əlaqələrdən (ixracdan) irəli gələn tələbat.* Təklif isə iki qrupa bölünür: *yerli istehsalın təklifi, xarici iqtisadi əlaqələrdən (idxaldan) yaranan təklif.* Onlar arasında tarazlığın yaradılması istehlak bazarının qanunuyğunluğunu səciyyələndirir. Sxematik olaraq, aşağıdakı 2-ci sxemdəki kimi ifadə etmək olar.

Sxem 2. İstehlak bazarının tarazlığının qiymətləndirilməsi
(kəmiyyət və keyfiyyət əlamətləri üzrə)



İstehlak bazarı mexanizmində qeyri-tarazlıq hallarında böhranlar baş verir, inflyasiya və ya defilyasiya müşahidə edilir, cəmiyyətdəki stabillik pozulur, istehsal subyektləri rəqabətə davam gətirə bilmir, müflisləşmə baş verir, təbii və iqtisadi ehtiyatlardan səmərəli istifadə edilmir və s.

İqtisadi mexanizm təkcə təşkilati mexanizmdən asılı olmur və həm də idarəetmə mexanizminin mükəmməlliyi tələb olunur. Sahibkarlıq məharəti həm də idarəetmənin düzgün təşkili və həyata keçirilməsində özünü təzahür etdirir. İdarəetmə mexanizmi əməyin elmi təşkili, ixtisaslaşma, qarşılıqlı əlaqələrin və inteqrasiyanın məqsədyönlü təşkili ilə sıx əlaqədə məqsədyönlü fəaliyyət göstərir. Sahibkarlıq məharətilə birlikdə isə təbii-iqlim şəraitindən səmərəli istifadə edilir, təbii və iqtisadi ehtiyatlardan (o cümlədən, pul kütləsindən) istifadə olunmasında israfçılığa yol verilmir, məhsul bolluğu yaradılır, istehsal xərcləri azaldılır, istehlak bazarına keyfiyyətli və ucuz məhsulların çıxarlıması mümkün olur, mənfəətın həcmi çoxalır və s.

İdarəetmə mexanizminin çevikliyi və səmərəli fəaliyyəti hüquqi və təşkilati mexanizmlərin əlverişli fəaliyyəti ilə bilavasitə asılı olur. İdarəedici və nərarət orqanlarının düzgün təşkili, sərf edilən əməyin ixtisaslaşdırılması, idarəetmənin müasir metodlarından istifadə olunması və s. amillər idarəetmə mexanizminin səmərəliliyinə təminat yaradır.

İqtisadi mexanizmin ən əsas amillərindən biri tam və düzgün iqtisadi-statistik qiymətləndirmə ilə səciyyələndirilir. Sərf edilmiş əməyin, istifadə olunmuş xam-mal və materialların, istehsal edilmiş məhsul və göstərilmiş xidmətlərin kəmiyyət və keyfiyyət əlamətləri üzrə dəqiq bilmək, mövcud olan məhsullardan istifadə xüsusiyyətlərini öyrənmək idarəetmə mexanizminin səmərəli fəaliyyətinin zəruri şərtlərindən hesab edilir. İdarəetmə amili iqtisadi mexanizmin bütün mərhələlərində aktuallığını göstərir. Hüquqi və fiziki şəxslərinin məqsədini düzgün müəyyən etmək, öhdəliklər götürmək və onların uğurla yerinə yetirilməsi məhz elmi əsaslar üzrə yaradılmış idarəetmə sistemindən asılı olur. Sahibkarın məharətini göstərmək və gözlənilən nəticələrə nail olmaq məhz idarəetmənin düzgün təşkili və fəaliyyət nəticələrinin düzgün qiymətləndirilməsi ilə vəhdət yaradılmasını tələb edir.

Hüquqi və fiziki şəxslərin fəaliyyət nəticələrinin iqtisadi-statistik qiymətləndirilməsinin özünəməxsis mexanizmi fəaliyyət göstərir. Onun tərkib hissələrinə daxil edilir: mühasibat uçotunun təşkili və aparılması, statistik uçotun səmərəli təşkili, operativ uçotun səmərəli fəaliyyəti. Göstərilən forma və üsullarla, iqtisadi mexanizmin bütün tərkib hissələri üzrə, sahibkarlıq fəaliyyətin nəticələri qiymətləndirilir. Qiymətləndirmə zamanı müxtəlif göstəricilər sistemindən istifadə edilir. Onların içərisində ən ümumi göstəricilərə daxil edilir:

- ehtiyatların (torpaq, əmək və kapital) mövcudluğu, tərkibi və istifadə edilməsi;
- istehsal edilmiş məhsulun və göstərilmiş xidmətlərin natural ifadədə kəmiyyət və keyfiyyət əlamətlərinin səciyyələndirən göstəricilər (növlər üzrə);
- məhsul və xidmətlərdən istifadə edilməsinə dair göstəricilər;
- istehsal edilmiş məhsulların və göstərilmiş xidmətlərin dəyər göstəriciləri (növlər üzrə), istehsalçı qiymətlərinə əsasən hesablanır;
- istehsal edilmiş məhsullar və göstərilmiş xidmətlərə çəkilən xərclər (növləri üzrə). İstehlakçı qiymətlərinə əsasən məhsulların istehsalına və xidmətlərin göstərilməsinə faktiki sərf edilmiş xammal və materialların kəmiyyət və

keyfiyyətinə uyğun hesablanır: yeni yaradılmış (əlavə dəyərin) hesablanması, hər bir məhsul növü və xidmətlər üçün hesablanır;

- yeni yaradılmış (əlavə dəyərin) məcmusunun bölüşdürülməsi: iqtisadi sanksiyaların ödənişi, vergi öhdəliklərinin yerinə yetirilməsi, sığorta öhdəliklərinin yerinə yetirilməsi, kredit faizlərinin ödənilməsi, muzdlu işçilərin əmək haqqının ödənişi, ümumi mənfəətin hesablanması, əsas vəsaitlərin amortizasiyasının hesablanması, xalis mənfəətin hesablanması, sosial sığortaya ayırmalar, kredit öhdəliyinin yerinə yetirilməsi (qaytarılması), sərəncamda qalan mənfəətin hesablanması və ondan istifadə edilməsi barədə müfəssəl hesablamaların aparılması və məlumatların hazırlanması.

İqtisadi mexanizmin səmərəli fəaliyyət göstərməsinə bəzi iqtsadi meod və yanaşmalar da bilavasitə təsir göstərir. Onlara, fikrimizcə, daxil etmək olar: qiymət mexanizmi, xərclər mexanizmi, maliyyə mexanizmi, kredit mexanizmi, sığorta mexanizmi, vergi mexanizmi və s.

Maliyyə mexanizmi iqtisadi mexanizmin məhvəri sayılır. Maliyyə mexanizmi hüquqi və fiziki şəxslərin maliyyə imkanları ilə səciyyələndirilir. Maliyyə mexanizminin əsasını istehsal və xidmətlərin göstərilməsi təşkil edir. Əmtəəlik məhsulun səviyyəsi nə qədər yüksək olarsa, iqtisadi subyektlərin pul gəlirləri bir o qədər çox olar, istehsalçı və istehlakçı qiymətlərinin səviyyəsindən asılı olaraq. İqtisadi subyektlərin dolayı gəlirlərinə daxil edilir: dövrlər dotasiyası və subsidiyaları, vergi güzəştləri, qiymətli kağızlara sahiblik, torpağın və əmlakın (uzun müddətli dövriyyə vasitələrinin) satışı və icarəyə verilməsi, əvəzsiz yardımların göstərilməsi və s. Maliyyə mexanizmi həm də özünəməxsus mikromexanizmlərə malik olur: kredit mexanizmi; sığorta mexanizmi; vergi mexanizmı.

Kredit mexanizmi maliyyə imkanlarının artırılmasına xidmət göstərir. İki əla-mətə malikdir: müəyyən məbləğdə kreditlərin alınması və alınmış kreditə görə faiz ödənişi. Alınmış kreditlər iqtisadi subyektlərin maliyyə imkanlarını yaxşılaşdırırsa, kredit faizlərinin əlverişliyi kredit mexanizminin səmərəli fəaliyyətinə şərait yaradır. Kreditlər təyinatı üzrə və qaytarmaq şərti ilə uzunmüddətli və qısa müddətli növlərinə bölünür. Kreditə görə faiz ödənişləri istehsal xərclərinə daxil edilmir və yeni yaradılmış (əlavə) dəyərdən ödənilir. Kreditlərin qaytarılması isə mənfəət hesabına həyata keçirilir. Göstərilən qaydalar iqtisadi mexanizmin səmərəli fəaliyyətinə xidmət göstərir.

Sığorta mexanizmi iqtisadi subyektlərin risqlərini (itkilərini) azaltmaq və iqtisadi mexanizmin səmərəli fəaliyyət göstərməsi məqsədini özündə ifadə edir. Sığorta mexanizminin könüllü və məcburi sığorta formalarından istifadə edilir. İki tərəf arasında bağlanan müqaviləyə əsasən fəaliyyət göstərir. Sığorta təşkilatı və iqtisadi subyektlər öhdəliklər götürürlər. Sığorta obyektləri və sığortalanan hallara görə sığortalanan sığorta haqqını ödəyir və sığortaçı təbii fəlakətlər, bədbəxt hadisələr və s. hallarda dəymiş ziyanı (sığorta olunan məbləğdə) ödəmək öhdəliyi götürür. Sığorta haqqı yeni yaradılmış (əlavə) dəyərdən ödənilir.

## 4. İqtisadi mexanizmə qlobal (beynəlxalq standartlatın tələblərindən) yanaşma

İqtisadi mexanizmin ən əhəmiyyətli tərkib hissəsinin sahəvi fəaliyyət sistemi təşkil edir. Müasir dövrdə sahəvi fəaliyyət sistemi beynəlxalq standartlara əsasən yaradılır. Avropa Birliyinin iqtisadi siyasətinə uyğun olaraq, milli iqtisadiyyat

sistemlərinin tərkibi vahid mexanizm əsasında müəyyənləşdirilir və öyrənilir. Müxtəlif təsnifatlardan istifadə edilməsi tövsiyə olunur [2, 40-46]. Onlar iqtisadi münasibətlər sisteminin iqtisadi mexanizmini müxtəlif aspektlərdən xarakterizə edirlər.

***Məsələn, iqtisadiyyat sektorlarının (bölmələrinin) təsnifatı***. Bazar iqtisadiyyatı şəraitində milli gəlirin düzgün hesablanması məqsədi ilə, iqtisadiyyat sistemini təşkil edən təsərrüfat subyektləri funksiyaları, gəlirləri və ehtiyatlarının əsas mənbələri baxımından beş qrupa bölünürlər:

- qeyri-maliyyə müəssisələri;
- maliyyə təşkilatları;
- ümumi dövlət idarəetmə sektoru;
- ev təsərrüfatları;
- ev təsərrüfatlarına xidmət göstərən qeyri-kommersiya təşkilatları.

Qeyri-maliyyə müəssisələri iqtisadiyyat sisteminin onurğası hesab edilir. Əsas istehsal və xidmət sahələrini əhatə edir, maliyyə xidmətlərindən başqa. Onu bəzən də iqtisadiyyatın əsas sektoru adlandırırlar.

Maliyyə təşkilatları qeyri-maliyyə təşkilatları və ev təsərrüfatlarına maliyyə xidmətləri göstərmək funksiyasını yerinə yetirirlər. Onların maliyyə ehtiyatlarını formalaşdırmaq və imkanlarını genişləndirmək xüsusiyyətlərinə malikdirlər.

Ümumi dövlət idarəetmə sektorunda, qanunvericiliyə uyğun olaraq, tənzimləmə funksiyaları yerinə yetirilir. Cəmiyyətin idarə edilməsi vəzifələri öz həllini tapır.

Ev təsərrüfatları əsas istehlak bazarını formalaşdırır, əhalinin ərzaq və qeyri-ərzaq məhsulları istehlak edirlər, eyni zamanda, burada məhsul istehsal edilir və xidmətlər göstərilir.

Ev təsərrüfatlarına xidmət göstərən qeyri-kommersiya təşkilatları əsasən pulsuz xidmətlər göstərirlər, ictimai təşkilatlar və siyasi partiyaların fəaliyyətinin nəticələrini səciyyələndirməyə xidmət göstərir.

Bu beş sektor arasında funksiyaların bölgüsü, qarşılıqlı əlaqələrin səmərəli təşkili məhdud təsnifləşdirmə nəticəsində iqtisadi mexanizmin fəaliyyəti və səmərəliliyi barədə təsəvvür yaradır. Onun hər birində dəyər yaradılır, aralıq istehlak xərcləri mövcuddur və yeni yaradılmış (əlavə) dəyər hesablanır və bölgüsü həyata keşirilir. Biz onları məcazi mənada iqtisadi mexanizmin "üç bacısı" hesab edirik.

İqtisadi mexanizmin daha geniş təsəvvürü ***iqtisadi fəaliyyət növlərinin təsni-fatı*** vasitəsi ilə yaradılır. Bu təsnifat bütün iqtisadi fəaliyyət növlərini özündə əks etdirir, vahid beyəlxalq standarta uyğunlaşdırmaq məqsədini özündə əks etdirir.

İqtisadi münasibətlər sisteminin faktiki vəziyyəti və inkişaf qanunauyğunluqlarının öyrənilməsində istifadə edilən əhəmiyyətli anlayışlardan biri "tərkib" sözü ilə səciyyələndirilir. Bir qayda olaraq, "tərkib" anlayışı vasitəsilə varlıqların tərkib xüsusiyyətləri öyrənilir. İqtisadi münasibətlər sistemində isə belə xüsusiyyətləri fəaliyyət sahələrinin sahəvi yanaşma metodu hesab edilir. İlk növbədə, tərkib əlamətləri üç qrupa bölünür: istehsal münasibətləri (məhsul istehsalı və xidmətlər göstərilməsi məqsədlərindən irəli gələn vəzifələrlə səciyyələndirilir və fəaliyyət növlərini özündə birləşdirir); mübadilə (satış) münasibətləri (istehsal olunmuş məhsulun və göstərilmiş xidmətlərin istehlakçılara çatdırılması ilə əlaqəli fəaliyyət növləri ilə səciyyələndirilir); istehlak münasibətləri (hazır məhsul və xidmətlərin aralıq və son istehlakı ilə əlaqəli münasibətlər toplusundan ibarətdir.

Göstərilən münasibətlər sisteminin fəaliyyət nüvəsini əmək təşkil edir. Onun tərkib hissələrinə daxil edilir:

- maddiləşmiş əmək (əmək vasitələri və əmək cismlərindən ibarətdir);
- canlı əmək.

İqtisadi nəzəriyyəçilərin əməyin tərkib xüsusiyyətlərinin öyrənilməsinə ilkin yanaşmaları əmək bölgüsü və ixtisaslaşmanın baş verməsi əhəmiyyətinin şərhi və qanunauyğunluqların aşkar edilməsilə səciyyələndirilir. Onun başlanğıcı təxminən beş min il əvvəllərə aid edilir və tarixdə Neolit inqilabı kimi əks olunmuşdur. Sonradan sənətkarlığın və ticarətin müstəqil fəaliyyət sahələrinə çevrildiyi güman edilir. Beləliklə, qədim insanların fəaliyyət sahələrinin tərkibi aşağıdakı kimi səciyyələndirilmişdir: bitkiçilik; heyvandarlıq; sənətkarlıq; ticarət; idarəedicilər (rəhbərlər, ruhanilər, filosoflar və müdafiəçilər kimi silklərə bölünmüşdür).

Müasir dövrdə insanların iqtisadi münasibətlər sistemində dərin ixtisaslaşmanın geniş miqyas alması, xarici əlaqələrin genişlənməsi və vahid dünya təsərrüfatı sisteminin yaranması, habelə digər zəruri amillərin təsiri altında iqtisadi münasibətlər sisteminin keyfiyyətcə yeni təsnifləşdirilməsi, bütün ölkələrin iqtisadi münasibətlər sisteminin ona uyğun iqtisadi-statistik qiymətləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Odur ki, BMT-nin müvafiq qurumları tərəfindən hazırlanmış və təklif edilmiş təsnifatlar sistemindən istifadəyə üstünlük verilir.

İqtisadi Fəaliyyət Növlərinin Təsnifatına uyğun olaraq, hər bir ölkənin milli təsərrüfat sistemi 21 seksiyaya (sahəyə), 88 bölməyə, 272 qrupa, 615 sinifə, 747 alt-sinifə, 1342 kateqoriyaya, 3142 altkateqoriyaya və 4850 məhsul növlərinə bölünür. Biz seksiyaları sahə adlandırırıq və vahid təsərrüfat sistemi aşağıdakı sahələrə bölündüyünü qeyd edirik [8, 7]:

**Sxem 3. Milli iqtisadiyyat sisteminin sahəvi tərkibi (mexanizmi)**

A. Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq;
B. Mədənçıxarma (hasilat) sənayesi;
C. Emal sənayesi;
D. Elektrik enerjisi, qaz, buxar və havanın istehsalı (kondisiyalaşdırılması) və paylaşdırılması;
E. Su təchizatı, çirkab suların və tullantıların təmizlənməsi;
F. Tikinti;
G. Topdan və pərakəndə satış, avtomobil və motosikletlərin təmiri;
H. Nəqliyyat və anbar təsərrüfatı;
I. Yaşayış üçün xidmətlərin göstərilməsi və yeməklərin çatdırılması üzrə xidmətlər;
J. İnformasiya və rabitə;
K. Maliyyə və sığorta fəaliyyəti;
L. Daşınmaz əmlakla əlaqədar əməliyyatlar;
M. Peşə, elmi və texniki fəaliyyət;
N. İnzibati və yardımçı xidmətlərin göstərilməsi;
O. Dövlət idarəetməsi və müdafiə, məcburi sosial təminat;
P. Təhsil;
Q. Səhiyyə və sosial müdafiə xidmətlərin göstərilməsi;
R. İstirahət, əyləncə, mədəniyyət sahəsində fəaliyyət;
S. Digər sahələrdə xidmətlərin göstərilməsi;

T. Ev təsərrüfatlarının fəaliyyəti, fərdi istehlak üçün ev təsərrüfatlarının istehsalı və xidmətlər göstərilməsi;
U. Toxunulmazlıq hüququ olan təşkilatların fəaliyyəti [8, 7].

Müasir vahid dünya təsərrüfatı sistemində, demək olar ki, bütün ölkələr üzrə milli iqtisadi münasibətlərin ən ümumi sahəvi tərkibi yuxarıdakı kimidir. Fərqli iqtisadi fəaliyyət növlərinə görə, vahid iqtisadiyyat sisteminin subyektləri (hüquqi və fiziki şəxslər) sahələrə, sahələr bölmələrə, bölmələr qruplara və qruplar siniflərə bölünür. İqtisadi fəaliyyətin oxşar əlamətinə görə, iqtisadi fəaliyyət vahidləri uyğun siniflərdə birləşir, siniflər uyğun qruplara, qruplar uyğun bölmələrə və böl-mələr uyğun sahələrə birləşir. Beləliklə, iki əlamət üzrə: oxşarlıq və fərqlilik prinsiplərinə görə iqtisadi münasibətlərin sahəvi xüsusiyyətləri öyrənilir.

Üçüncü sxemdə verilmiş iqtisadi fəaliyyət sahələrinin hər birinin özünəməxsus quruluşu (mexanizmi) mövcuddur. Müvafiq sahələrin iqtisadi nəzəriyyələri onların spesifik mexanizmini nəzərə alaraq, inkişaf qanunauyğunluqlarının öyrənilməsi vəzifəsini yerinə yetirməli və cəmiyyətin iqtisadi biliyinin (şüurunun) müasir tələblərə uyğun formalaşdırmağa nail olmalıdır.

## İSTIFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

1. Zeynalov Ş. Ə., Sivilizasiyalararası münasibətlər: problemlər və perspektivlər, Bakı, Oğuz Eli nəşriyyatı, 2014, 240 s.;
2. Zeynallı Ə. T., Zeynallı Z. Ə., Statistika: Sosial-iqtisadi məsələlər, dərs vəsaiti, “Avropa” nəşriyyatı, 2011, 544 s.;
3. Измалков С., Сонин К., Юдкевич М., Теория экономических механизмов *(Нобелевская премия по экономике 2007 г.) //* "Вопросы экономики", № 1, 2008, http://www.hse.ru/data/296/541/1238/1-08.pdf;
4. Слепов В.А., Бурлачков В. К., Орлов К. В., О теории экономических механизмов // Финансы и кредит, 2011, №24, с.2-8;
5. http://dspace.nbuv.gov.ua/xmlui/handle/123456789/24803$
6. Рузавин Г. И., Мартынов В. Т., Курс рыночной экономики, Москва, издво ЮНИТИ, 1994;
7. Нуреев Р. М., Курс микроэкономики, учебник для вузов, Норма, Москва, 2000;
8. İqtisadi fəaliyyət növlərinin təsnifatı, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin nəşri, Bakı, 2008, 361 s.;

**Экономический механизм: сущность, принципы формирования и функции**

Зейналлы Алиса Таваккуль оглы, д. ф. э.,

РЕЗЮМЕ

Экономический механизм, который характеризует целенаправленные действия людей, объединяет сам по себе очень сложную систему механизмов. Его центральные элементы: производственные, обменные (торговые) и потребительские системы отношений. Эффективные действия его юридического, организационно-управленческого и учетно-отчетного механизмов имеют важное значение. Рациональность действия экономического механизма во многом зависит от полезности функционирование обслуживающих таких механизмов как: цены, затраты, налоги, инвестиции, страхование, кредитование, государственного регулирование, финансового, распределение стоимости и перераспределение добавленной стоимости, географических (региональных) действии субъектов. Таким образом, экономический механизм является своеобразной системой с тесно взаимодействующими элементами. Образование каких либо помех или негативных явлений в одной из этих элементов незамедлительно отрицательно повлияет на стабильную работу всего экономического механизма в целом.

**Ключевые слова**: экономический механизм, механизм производственных отношений, механизм обменных (торговых) отношений, механизм портебительских отношений, обслуживаюшие механизмы.

**The economic mechanism: essence, principles of formation and function**

Zeynalli Alisa Tavakkul (Ph.D)

RESUME

The economic mechanism which have characterize of purposeful actions of people, is covers (unites) in itself very difficult systems of mechanisms. Its central elements: productions, exchange (trading) and consumer systems of relations. Effective actions of its legal, organizational-administrative and registration-accounting of mechanisms are having the big importance. Rationality of action of the economic mechanism more depends on utility functioning of serving such mechanisms as prices, an expenses, taxes, investments, insurance, crediting, state regulation, financial, mechanisms of distribution of cost and redistribution of added cost, geographical (regional) actions of subjects. Thus, the economic mechanism is original systems of mechanisms with closely co-operating elements. What formation any one hindrances or the negative phenomena in one of these elements will immediately negatively affect stable work of all economic mechanism as a whole.

**Keywords**: the economic mechanism, the mechanism of production relations, the mechanism of exchange (trading) relations, the mechanism of consumer relations, the services mechanisms